# PREZİDENT İLHAM ƏLİYEV 2023-CÜ İLİN İDMAN YEKUNLARI İLƏ BAĞLI TƏŞKİL OLUNMUŞ MƏRASİMDƏ İDMAN İCTİMAİYYƏTİNİN TƏLTİF EDİLMİŞ NÜMAYƏNDƏLƏRİ İLƏ GÖRÜŞÜB

***Dekabrın 21-də Xankəndi stadionunda futbol üzrə Azərbaycan Kubokunun 1/8 final mərhələsində Ağdamın "Qarabağ" və Bakının MOİK komandaları arasında keçirilən oyunun fasiləsində Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev 2023-cü ilin idman yekunları ilə bağlı təşkil olunmuş mərasimdə idman ictimaiyyətinin təltif edilmiş nümayəndələri ilə görüşüb.***

Azərbaycan Prezidenti həmişə olduğu kimi, bu il də idmançılarımızı sevindirib. Belə ki, dekabrın 20-də Prezident İlham Əliyev Azərbaycanda idmanın inkişafında xidmətləri olan bir qrup şəxsin təltif edilməsi haqqında Sərəncam imzalayıb. Sərəncama əsasən, 1 nəfər "Azərbaycan Respublikası Prezidentinin fəxri diplomu", 17 nəfər "Tərəqqi" medalı ilə təltif edilib. Bundan başqa, Azərbaycanda idmanın inkişafında xüsusi xidmətlərinə və yüksək peşəkarlığına görə 3 nəfərə "Əməkdar bədən tərbiyəsi və idman xadimi" fəxri adı verilib. Həmçinin ölkə idmanının inkişafında uzunmüddətli səmərəli fəaliyyətinə görə 4 nəfərə Azərbaycan Respublikası Prezidentinin fərdi təqaüdü təyin edilib. İdman ictimaiyyətinin 29 nümayəndəsinə isə mənzil verilib.






# ÖLKƏMİZİN ƏLDƏ ETDİYİ NAİLİYYƏTLƏRƏ GÖRƏ CƏNAB PREZİDENTƏ MİNNƏTDARIQ



Prezident İlham Əliyevin ölkəyə rəhbərlik etdiyi 2003-cü ildən ötən müddət Azərbaycan tarixinə hərtərəfli və sürətli inkişaf dövrü kimi daxil olub.

Şübhəsiz, sosial-siyasi sabitliyin qorunmasının, mövcud iqtisadi inkişafın, hərtərəfli tərəqqinin təməlində ümummilli lider Heydər Əliyevin inkişaf strategiyası, onun müəyyənləşdirdiyi daxili və xarici siyasət xətti dayanır. O da həqiqətdir ki, ulu öndərin əsasını qoyduğu daxili və xarici siyasət kursunun uğurla davam etdirilməsi sayəsində Azərbaycan bugünkü yüksəlişə və inkişafa nail olub. Gənc dövlətin əsaslarının möhkəmliyi və həyata keçirilən strategiyanın səmərəliliyi məhz Prezident İlham Əliyevin liderlik keyfiyyətləri, zəkası, siyasi iradəsi və uzaqgörənliyi, ümumilikdə, rasional varislik modeli sayəsində mümkün olub.

Biz ölkəmizin əldə etdiyi bütün nailiyyətlərə görə cənab prezidentə minnətdarıq. Doğum günü münasibətilə prezidentimizə və ailəsinə cansağlığı , firəvan ömür arzulayırıq!



***Tarix İslamov,***
***Kürdəmir Rayon Mərkəzi Xəstəxanasının baş həkimi***

# İLHAM ƏLİYEVİN İMZASI XALQIN, MİLLƏTİN İMZASIDIR

"Həyatımın yarıdan çoxunu Bakı Dövlət Universiteti kimi Azərbaycanın ilk və aparıcı ali təhsil müəssisəsində dərs deyən müəllimə olaraq əyani tələbə ilə qiyabi tələbə arasındakı fərqi çox yaxşı bilirəm. Bizlər hamımız H.Əliyev məktəbinin qiyabi tələbələri, İlham Əliyev isə onun əyani tələbəsidir".

2003-cü ildə prezidentliyə namizəd İ. Əliyevin seçkiqabağı kompaniyasında söylədiyim bu sözlərdən düz 20 il ötür. 20 ildir ki, bu yolun ən sadiq yolçusu, Ulu Öndər kursunun ən layiqli davamçısı əyani tələbə adını qürurla daşımaqda, bu adın məsuliyyətinin təməl prinsiplərini həyatının kredosuna çevirməkdədir.

Yaşanan 20 ilin xülasəsini bir cümləyə sığışdırmalı olsaydıq yəqin ki, o, təxminən belə səslənərdi: "Gərgin, prinsipial, yorulmaz fəaliyyət, sonsuz mübarizə və mücadilələr fonunda reallaşdırılan titanik miqyaslı işlər, saysız-hesabsız proyektlər və əldə olunan parlaq, uğurlu nəticələr. Təbii ki, bu zaman kəsimində respublikamızın regionda lider, dünya arenasında müstəqil siyasət yeritmək statusuna yiyələnərək söz sahibinə çevrilməsi, ölkəmizin Beynəlxalq münasibətlər sistemində nüfuzunun yüksəlməsi bütün sferalardakı inkişaf və qlobal kontekstdə balanslaşdırılmış uğurlu xarici siyasətin məntiqi göstəricisidir. Sadaladığımız və sadalamadığımız çoxsaylı uğurların altında sözsüz ki, siyasi qətiyyəti, cəsarəti, intellekt və prinsipial mövqeyi ilə seçilən qalib komandan - İlham Əliyevin imzası var. Onun imzası isə xalqın, millətin imzasıdır. Məhz bu səbəbdən bu gün ölkə rəhbərinin timsalında böyük fəxr və qürur hissi ilə deyə bilirik: "Var millətimin imzası imzalar içində". Azərbaycanın tarixi ərazilərinin bərpası, 30 illik həsrətə son qoyularaq Qarabağımızın işğaldan azad olunması kimi yuxularımızın, xəyallarımızın gerçəkləşdirilməsi də məhz onun adı ilə bağlıdır.

Azərbaycan xalqının artıq öz seçimini edərək sülhə, sabitliyə, davamlı inkişaf və sosial rifaha səs verəcəyi məlum həqiqətdir. Biz isə öz növbəmizdə möhtərəm İlham Əliyevə çətin və şərəfli işində uğurlar, Azərbaycanın müstəqilliyi yolunda dönməzlik, qətiyyət, böyük arzularını reallaşdırmaq üçün fiziki sağlamlıq və uzun, mənalı ömür arzulayırıq. Müzəffər xalq, müzəffər ordu və müzəffər rəhbər birliyi ilə Azərbaycan adına böyük hədəflərə mətin addımlarla inamla, İLHAMLA İRƏLİ !!!



***Əsmətxanım Məmmədova,***
***I və II çağırış Milli Məclisin deputatı,***
***Bakı Dövlət Universiteti Şərqşünaslıq fakültəsinin dosenti, filologiya elmləri üzrə fəlsəfə doktoru***

# İORDANİYANIN KRALI II ABDULLAH İBN AL HÜSEYNDƏN

Azərbaycan Respublikasının Prezidenti Zati-aliləri cənab İlham Əliyevə

Hörmətli cənab Prezident.

Doğum gününüz münasibətilə Zati-alinizə ən səmimi təbriklərimi və xoş arzularımı çatdırmaqdan böyük məmnunluq duyuram.

İcazə verin, Sizə cansağlığı və xoşbəxtlik diləyi ilə ən xoş arzularımı çatdırım.



***Hörmətlə,***
***II Abdullah ibn Al Hüseyn***
***İordaniyanın Kralı***

# TÜRK DÖVLƏTLƏRİ TƏŞKİLATININ BAŞ KATİBİ KUBANIÇBEK ÖMÜRALIYEVDƏN

Azərbaycan Respublikasının Prezidenti Zati-aliləri cənab İlham Əliyevə

Zati-aliləri.

Türk Dövlətləri Təşkilatının Katibliyi adından və şəxsən öz adımdan doğum gününüz münasibətilə Sizə səmimi təbriklərimi və ən xoş arzularımı çatdırmaqdan məmnunluq duyuram.

Türk Dövlətləri Təşkilatının qurucu dövlətlərindən olan Azərbaycan Respublikası Sizin müdrik rəhbərliyinizlə siyasi və sosial-iqtisadi inkişaf yolunda böyük uğurlar qazanmaqda və beynəlxalq arenada öz nüfuzunu durmadan möhkəmləndirməkdədir.

Bu yaxınlarda Astana şəhərində keçirilmiş Türk Dövlətləri Təşkilatının 10-cu Zirvə görüşü zamanı Sizinlə görüşümü böyük məmnuniyyətlə xatırlayıram. Türk dövlətlərinin birliyinə verdiyiniz əvəzsiz töhfə Türk dünyasına olan rəğbətinizin göstəricisidir. Fürsətdən istifadə edərək, Türk Dövlətləri Təşkilatına göstərdiyiniz hərtərəfli dəstəyə və təşəbbüslərinizə görə Sizə bir daha minnətdarlığımı bildirirəm.

Sizə səmimi-qəlbdən möhkəm cansağlığı, Azərbaycan xalqının rifahı naminə bütün təşəbbüslərinizdə və səylərinizdə yeni uğurlar diləyirəm.



***Hörmətlə,***
***Kubanıçbek Ömüralıyev***
***Türk Dövlətləri Təşkilatının Baş katibi***

# MOSKVANIN VƏ BÜTÜN RUSİYANIN PATRİARXI KİRİLLDƏN

Azərbaycan Respublikasının Prezidenti Zati-aliləri cənab İlham Əliyevə

Zati-aliləri, möhtərəm İlham Heydər oğlu.

Doğum gününüz münasibətilə Sizi səmimi-qəlbdən təbrik edirəm.

Siz atanızın layiqli varisi olaraq 20 ildən artıqdır ki, Azərbaycan Respublikasının Prezidenti vəzifəsində yüksək məsuliyyətlə çalışırsınız. Siz təcrübəli dövlət lideri, doğma ölkəsini hərarətlə sevən bir insan kimi onun sosial-iqtisadi inkişafına, cəmiyyətdə millətlərarası dialoqun və vətəndaş həmrəyliyinin dəstəklənməsinə böyük töhfə verirsiniz.

Rus Pravoslav Kilsəsinin Bakı Yeparxiyasının ehtiyaclarına qayğıkeş münasibətə və konstruktiv qarşılıqlı fəaliyyətə görə Sizə minnətdaram. Ümidvaram ki, bu fəaliyyət gələcəkdə də insanların həyatında daimi əxlaqi dəyərlərin, xeyirxahlıq ideallarının və şəfqətin təsdiqlənməsinə kömək edəcəkdir.

Sizə möhkəm cansağlığı, daim ruh yüksəkliyi, sülh və Azərbaycan xalqının maraqları naminə gələcək fəaliyyətinizdə Uca Yaradanın köməyini arzulayıram.



***Dərin hörmətlə,***
***Kirill***
***Moskvanın və Bütün Rusiyanın Patriarxı***



# XALQIMIZ DAİMA PREZİDENTİMİZN YANINDADIR

Prezident İlham Əliyev Azərbaycan xalqının dahi oğlu Heydər Əliyevin demokratik, hüquqi və dünyəvi dövlət quruculuğu siyasətini uğurla davam etdirir. Prezident İlham Əliyev ölkədə İnsan haqları və azadlıqlarının daha dolğun təmin olunmasını daim diqqət mərkəzində saxlayır. O, Heydər Əliyevin Azərbaycan xalqının milli-mənəvi dəyərlərinin qorunub saxlanılması və daha da inkişaf etdirilməsi kursunu uğurla həyata keçirir. Xalqımız daima prezidentimizn yanındadır, onun liderliyi ilə daha böyük nailiyyətlər qazanacağına inanırıq. Doğum günündə prezidentimizə və onun ailəsinə uzun ömür, cansağlığı arzulayırıq.

***Könül Əsədova***
***"Kiçik mələklər" uşaq bağçasının müdiri***

# PREZİDENT İLHAM ƏLİYEV ÖLKƏDƏ HƏYATA KEÇİRİLƏN UĞURLU SOSİAL SİYASƏT KURSUNUN LİDERİDİR

Azərbaycanda demokratik, hüquqi və dünyəvi dövlət quruculuğunda fəal iştirak edən İlham Əliyev, həm də görkəmli partiya xadimidir. O, ölkənin aparıcı siyasi partiyası olan Yeni Azərbaycan Partiyasının (YAP) lideridir. Azərbaycanın qüdrətinin daha da artmasını, ölkənin dinamik inkişaf yolunda əmin addımlarla irəliləməsini təmin edən mühüm strateji amillərdən biri Prezident İlham Əliyevin rəhbərliyi ilə həyata keçirilən uğurlu sosial siyasət kursudur.

Dövlət başçısının sosial dövlət fəlsəfəsinin əsasında hər bir vətəndaşın layiqli həyat şəraitinin təmin edilməsi prinsipi durur. Prezdentimizi doğum günü münasibətilə təbrik edirik!

***Tural Kamranzadə***
***Nizami RPİ DYP-nin YNH üzrə inspektoru, polis baş leytenantı***

# XALQ SİZİNLƏDİR, CƏNAB PREZİDENT!

Prezident İlham Əliyevin 20 il ərzində ölkəmizin və eləcə də Avropanın enerji təhlükəsizliyinin təminatı istiqamətində atdığı çoxkombinasiyalı siyasi gedişləri heyranlıq doğurur. Nəzərə alsaq ki, enerji təhlükəsizliyi dünyanın aparıcı dövlətlərinin milli təhlükəsizlik strategiyasının həlledici amilidir, bu baxımdan bir sıra dövlətlər və onların siyasi liderləri prezidentimizlə hesablaşır.

Ulu öndər Heydər Əliyevin müəllifi olduğu neft diplomatiyasını uğurla davam etdirən cənab İlham Əliyev müxtəlif obyektiv və subyektiv çətinliklərin öhdəsindən gələrək 2006-cı ilə "Bakı-Tbilisi-Ceyhan, 2007-ci ildə "Bakı-Tbilisi-Ərzurum" kimi nəhəng neft və qaz marşrutlarının reallaşmasına nail oldu. Bununla da biz gücümüzü dünyaya bir daha nümayiş etdirdik. Bu Prezidentimizin uzaqgörənliyi, siyasi iradəsi sayəsində baş verdi. Doğum gününüz mübarək olsun. Xalq Sizinlədir!



***Fərmayıl Vəliyev,***
***Abşeron Sukanal İdarəsinin rəisi***

# PREZİDENT İLHAM ƏLİYEV AZƏRBAYCANIN STRATEJİ İNKİŞAFINI DƏQİQ MÜƏYYƏN EDİB

Prezident İlham Əliyev praqmatik siyasətçidir, hadisələri, prosesləri dəqiq qiymətləndirir, mühüm məsələlərin elmi cəhətdən əsaslandırılmış həlli yollarını təqdim edir, verdiyi bütün vədləri gerçəkləşdirir. O, Azərbaycanın tərəqqisini təmin edən strateji inkişafını dəqiq müəyyən edib. Prezidentimizi xalq sevir, ona inanır, onunla fəxr edir. Biz də kollektivimiz adından möhtərəm İlham Əliyevi doğum günü münasibətilə təbrik edirik. Uğurları həmişə onunla qoşa addımlasın!

***E. Ş. Məmmədov,***
***Nizami RETİ-nin idarə rəisi***